## Azərbaycan-Küveyt əlaqələri genişlənir

# Səhranın "parlaq günəşi"

**Müasir dövrdə təkcə Yaxın və Orta Şərqin həyatında deyil, bütövlükdə dünyada gedən maliyyə-iqtisadi proseslərdə söz sahibi olan Küveyt dövləti beynəlxalq münasibətlər sistemində də özünəməxsus yer tutur. Bu dövlət fevralın 25-də özünün milli bayramını qeyd edir. Bu bayram 1961-ci ildə Küveyt dövlətinin yaradılması və Küveyt əmiri Abdulla əs-Salem əs-Sabahın məhz həmin gündə tacqoyma mərasimi şərəfinə müəyyən edilmişdir.**



Azad, varlı, müasir sakinləri olan bu dövlət ərazicə kiçik olsa da, güclü iqtisadiyyata malikdir. Onun bu inkişaf səviyyəsi bir çox qonşu və uzaq ölkələrdən insanların qazanc ardınca bu ölkəyə axınına səbəb olmuşdur. Burada Hindistan, İran, Pakistan və Nepal kimi ölkələrin nümayəndələrinə rast gəlmək olar.

Tarix boyu bu ölkə müxtəlif dövlətlərin hərbi yürüşlərinə məruz qalmışdır. Lakin heç bir qüvvə Küveytə ayaq üstə durmağa və öz dövlətini yenidən qurmağa mane ola bilməmişdir.

Küveyt hakimiyyəti ölkənin və mədəniyyətin dirçəldilməsinə böyük qüvvə sərf edib. Hazırda bu güclü, zəngin və möhtəşəm dövlət nəinki öz vətəndaşlarının rifahı üçün hər şey edir, eyni zamanda iş ardınca bu torpağa ayaq basanlara çörək qazanmaqda kömək edir və mənzil verir.

Ölkənin yarandığı gündən onun daxili və xarici fəaliyyətində müxtəlif maliyyə fondları mühüm rol oynayır. Küveyt Ərəb İnkişaf Fondu (KƏİF) adətən Küveyt Fondu kimi məlumdur. Bu fond inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki yardım göstərilməsi məsələlərilə məşğuldur. Fondun əsası qoyulan zaman belə bir qərar qəbul olunmuşdu ki, Küveytin neft ehtiyatlarından əldə olunacaq gəlirdən həm də qonşu və dost ölkələrin xeyrinə istifadə olunacaqdır. Küveyt fondu maliyyə sahəsində bir növ təcili yardım rolunu oynayır. Bu fond hətta 1990-cı ilin İraq müdaxiləsi zamanı öz işini davam etdirmiş və bu da beynəlxalq birliyin diqqətinin Küveytdəki vəziyyətə cəlb olunmasına kömək etmişdir.

Küveytin kiçik dövlət olmasına, onun ərazisinin bir hissəsinin də cansız səhra olmasına baxmayaraq, bu ölkənin valyutası sarsılmaz və qiymətlidir. Həm yerli, həm də istənilən xarici valyutanın ölkəyə gətirilməsi və oradan çıxarılması üçün heç bir məhdudiyyət yoxdur. Gömrük məntəqəsindən ilk növbədə alkoqollu içkilər və silah keçirmək olmaz. İraq işğalı zamanı Küveytdə ələ keçirilən bütün pul vəsaitləri işğalçılar tərəfindən aparıldığından, ölkə azad ediləndən dərhal sonra bütün dinar-pul nişanları dəyişdirilərək yeni formada buraxıldı. Bu valyuta bütün Yaxın Şərqdə həvəslə istifadə olunur.

Dünya bazarında neftin qiymətinin aşağı düşməsi bu ölkədə valyuta ehtiyatlarını artırmağa mane olmur. "Qiymət müharibəsi" gedişində Səudiyyə Ərəbistanı özünün qızıl valyuta ehtiyatlarını sürətlə xərcləməyə vadar olmuş, Rusiyada isə bu, milli valyutanın çökməsinə gətirib çıxarmışdır. Ancaq Küveyt, hətta neft üzərində rekord aşağı qiymətlərin olmasına baxmayaraq, valyuta ehtiyatları toplamaqda davam edir. Belə ki, 2014-2015-ci maliyyə ilində ölkənin valyuta ehtiyatları 592 milyard dollar (179,2 milyard dinara) həddinə çatdı.

Küveytdə bir qayda olaraq valyuta ehtiyatlarının həcmi açıqlanmır. Onların da böyük hissəsi ölkə hüdudlarından kənarda —Avropa və ABŞ banklarında saxlanılır. Bu ehtiyatlar iki fond arasında bölünmüşdür: Dövlət ehtiyat fondu və Gələcək nəsillərin ehtiyat fondu. Onların da hər ikisi suveren fond olan Küveyt İnvestisiya Təşkilatının nəzarəti altındadır. Küveyt bu imkanlara neft üzərində qiymətlərin son dərəcə aşağı olduğu bir şəraitdə uğurlu investisiyalarla nail olmuşdur.

Neftdən gələn gəlir Küveyt büdcəsinin 90 faizini təşkil edir. Neft çıxarılmasının həcmi isə sutkada 2,8 milyard barrel təşkil edir. Təkcə 2014-cü ildə ölkədəki, üç neft emalı zavodundan ikisinin modernizə edilməsinə 12 milyard dollar sərf etmişdir. Küveyt neft sənayesini modernizə etməkdən və onun emal gücünü sutkada 4 milyon barrelə çatdırmaqdan ötrü yaxın 5 ildə neft layihələrinə 60 milyard dollara yaxın vəsait xərcləməyi planlaşdırır. Hazırda ölkədə sutka ərzində 2,8 milyon barrel neft çıxarılır. Bununla belə, dünya neft ehtiyatlarının 10 faizə qədəri Küveytdə cəmləşib və onun 102 milyard barrel neft ehtiyatı vardır.

Neft gəlirləri ölkədə istehsal olunan ümummilli məhsulun, demək olar ki, yarısını təşkil edir. Bu, ixracatdan gələn gəlirin 95 faizi, həm də dövlət gəlirlərinin 95 faizi deməkdir.

İraq işğalı nəticəsində neftçıxarma və neft emalı müəssisələrinin xeyli hissəsi məhv edilmişdi. Bu azmış kimi, ölkə öz üzərinə beynəlxalq koalisiyanın hərbi xərclərinin ödənilməsi üzrə öhdəlik götürmüşdü. Müharibədən sonra neft təsərrüfatı sahələrinin bərpasına böyük vəsait sərf etmək lazım gəldi. Artıq 1992-ci ildə Küveytin neft sənayesi kompleksi, demək olar ki, tamamilə bərpa olundu. Son zamanlar illik neft hasilatı 100 milyon ton, təbii qaz hasilatı isə 4-5 milyon kubmetr təşkil edir.

Son zamanlar ölkə ərazisində ehtiyatlarına görə nadir Böyük Burqan və Safaniya-Hafci yataqları işlənib hazırlanır. Ölkənin enerji bölməsi çıxarılan yanacağın istifadəsinə əsaslanır. Ölkədə hər il 31,6 milyard kilovat elektrik enerjisi istehsal olunur ki, bu da daxili tələbatdan xeyli yüksəkdir.

Hazırda ölkədə neftlə əlaqədar olmayan digər sənaye sahələri də inkişaf etdirilir. Ölkə iqtisadiyyatında qeyri-neft sənayesi həmçinin tikinti materialları, gübrə istehsalı, yeyinti sənayesi və s. sahələrdə intensiv işlər görülür. Dəniz suyunun saflaşdırılaraq içməli hala salınması sahəsində Küveyt dünya ölkələri



siyahısında birinci yeri tutur. Ölkə ixracatının mühüm bir hissəsini də gübrələr təşkil edir. Dənizdən mirvari çıxarılması sahəsində də işlər genişləndirilir.

Təhsilin keyfiyyətinin yüksəldilməsilə elm tutumlu sahələr, məsələn, elektron sənayesi inkişaf etdirilir. Ölkədə bank bölməsi öz xidmət sahələrini genişləndirərək aktiv fəaliyyət göstərir.

Küveyt neft ixracatı hesabına ölkədə kapital artımına malikdir. Dövlət öz növbəsində həmin gəlirdən səmərəli istifadə edir. Artıq kapital xarici investisiyalara, rabitə vasitələrinin, yol şəbəkəsinin, ölkədaxili mülki tikintilərin inkişaf etdirilməsi üzrə çoxsaylı layihələrin həyata keçirilməsinə və sosial təminata xərclənir.

Ölkə təkcə "qara qızılın" böyük ehtiyatları ilə deyil, həm də inkişaf etmiş nəhəng, yüksək keyfiyyətli, həm daxili, həm də beynəlxalq telefon rabitəsi ilə öyünə bilər. Bu sahəyə mobil telefonlar, radiorele xətləri daxildir.

Küveytin bütün neft yataqları boru kəmərləri vasitəsilə sənaye mərkəzlərilə birləşdirilmişdir. Altı dəniz limanı ölkənin uğurlu ticarətini təmin edir. Küveytin ticarət donanmasının, demək olar ki, yarısını neft tankerləri təşkil edir. Ölkənin müxtəlif guşələri arasında hətta helikopter rabitəsi də tətbiq olunur.

Küveyt müstəqillik əldə etdikdən sonra dünyanın əksər ölkələrilə, xüsusilə ərəb dünyası ölkələrilə geniş beynəlxalq münasibətlər qurub. Əhəmiyyətli miqdarda neft ehtiyatlarına malik olması Küveyti regionun ən nüfuzlu ölkələrindən birinə çevirib. Onun səsi qlobal iqtisadi forumlarda və OPEK kimi beynəlxalq təşkilatlarda güclü çəkiyə malikdir. Uzun müddət Küveytin İraq ilə münasibətləri qeyri-sabit olmuşdur. Bu da İraqın işğalçılıq məqsədilə onun ərazisinə göz dikməsilə əlaqədar idi. İraq təcavüzü aradan qaldırılandan sonra Küveyt özünün diplomatik səylərini xeyli dərəcədə beynəlxalq koalisiyada iştirak etmiş dövlətlərlə yaxşı münasibətlərin qurulmasına yönəltdi. Bu ölkələrdən çoxu həyatın bəzi sahələrini modernizə etməkdə Küveytə kömək etdi. Eyni zamanda İraqı dəstəkləyən bəzi ölkələrlə münasibətlər ya kəsildi, yada ki, minimum həddə endirildi.

Ölkənin xarici iqtisadi əlaqələri uğurla inkişaf edir. Küveyt digər ölkələrə neft və neft məhsullarının satışı hesabına böyük dövlət olmuşdur. Məhz ölkə ərazisindəki böyük və zəngin neft yataqları onu dünya iqtisadiyyatında yüksək səviyyəyə çıxarmışdır. Ölkə neftlə yanaşı, müxtəlif gübrələr və xırda dəniz xərçəngi də ixrac edir. Amma bununla belə ixracatın böyük bir hissəsi neft məhsullarının üzərinə düşür. Bu sahədə Yaponiya, Hollandiya, Sinqapur və ABŞ onun əsas tərəfdaşları hesab olunurlar.

Ölkəyə maşınlar, tikinti materialları, geyim əşyaları, ərzaq kimi idxalat malları ABŞ, Yaponiya, Almaniya və Böyük Britaniyadan gətirilir. Küveytin xarici ticarətində sabit müsbət saldo mövcuddur.

Qeyd etmək lazımdır ki, öz növbəsində dövlət müstəqilliyini qazandığı ilk çağlardan Azərbaycanın da xarici siyasətinin üstün istiqamətlərindən biri İslam dünyası, o cümlədən də ərəb ölkələri ilə qarşılıqlı münasibətləri daha da inkişaf etdirmək olmuşdur. Azərbaycan xalqı tarixi, dini və mədəni tellərlə İslam sivilizasiyası ilə sıx bağlı olmuş və zəngin İslam mədəniyyətindən hər zaman bəhrələnmişdir. Məhz elə 1991-ci ildən etibarən Azərbaycan ilə Küveyt arasında dostluq münasibətləri və sıx əlaqələr formalaşmağa başlamışdır. İki ölkə arasında diplomatik münasibətlər 1994-cü il oktyabrın 10-da qurulmuşdur. Azərbaycan 2004-cü ildə Əl-Küveytdə, Küveyt isə 2006-cı ildə Bakıda öz səfirliyini açmışdır.

İqtisadi əlaqələrin inkişaf etdirilməsi istiqamətində səylər davam etdirilir. Obyektiv amillərlə yanaşı, subyektiv amillər də bu işə təkan verir. Belə ki, iki ölkə rəhbərlərinin arasında mövcud olan dostluq münasibətləri bu işdə böyük rol oynayır.

İki ölkə arasındakı münasibətləri geosiyasi amillər də şərtləndirir. Zəngin təbii ehtiyatların olması, bədxah ölkələrlə qonşuluq, hər iki ölkənin təcavüzə məruz qalması və işğalın dəhşətli nəticələrinin aradan qaldırılması üçün ciddi səylər göstərməsi, hər iki xalqın sülhsevər və zəhmətsevər olması kimi xarakterik xüsusiyyətləri bu ölkəni Azərbaycanla birləşdirən əsas amillərdir.

Daxili və xarici çətinliklərə baxmayaraq, hər iki xalq bir-birinin dərdini-sərini yaxşı başa düşür, lazım gələndə bir-birinə kömək etmək üçün səylərini əsirgəmirlər. Küveytin neft mədənlərində yanğınların nəticələrinin aradan qaldırılması sahəsində Küveytə kömək əlini uzadan ilk dövlətlərdən biri məhz Azərbaycan oldu.

Öz növbəsində Küveyt dövləti və onun xeyriyyə təşkilatları da Ermənistanın Azərbaycana təcavüzünün ilk aylarından başlayaraq azərbaycanlı qaçqınların və məcburi köçkünlərin humanitar vəziyyətinin yüngülləşdirilməsi məqsədilə öz yardım əlini ölkəmizə uzatmışdır.

Həmçinin Küveyt dövləti Dağlıq Qarabağ münaqişəsi üzrə öz rəsmi mövqeyini beynəlxalq təşkilatlar və BMT səviyyəsində dəfələrlə bildirmişdir. Bu mövqe isə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və beynəlxalq hüquq normalarına əməl olunmasından ibarətdir. Azərbaycan-Küveyt əlaqələrinin daha da inkişaf etdirilməsi Yaxın Şərqdə və Cənubi Qafqazda sülh və tərəqqi prosesini gücləndirir.

**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun dosenti.**